*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 312-321*

https://doi.org/10.62837/2026.1.312

**HABIBLI ALI**
**Master student**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**e-mail: hebibli.eli@bk.ru**

# THE INCREASE IN FOREIGN DIRECT INVESTMENT (FDI) POSITIVELY IMPACTS THE GDP GROWTH RATE.

## Xülasə

Bu məqalədə Xarici birbaşa investisiyaların Azərbaycanda milli iqtisadiyyata və iqtisadi artıma olan təsirini araşdırılıb. Tədqiqatın nəzəri hissəsində XBI-nin kapital axını, texnologiya transferi, idarəetmə, rəqabət mühitinə və işsizlik dərəcəsinə təsiri nəzərdən keçirilmişdir. Nəzəri analiz göstərir ki, xarici investisiyalar iqtisadi səmərəliliyi artırır, uzunmüddətli davamlı artımı stimullaşdırır, iş yerlərinin sayını artırır və ölkənin beynəlxalq bazarlara inteqrasiyasına töhfə verir. Beləliklə milli iqtisadiyyata müsbət təsir göstərir.

Təhlil hissədə 2017–2024-cü illər üzrə Azərbaycanın ÜDM və XBI göstəriciləri Excel proqramında göstərilmiş və təhlil edilmişdir, bu məlumatlar üzrə regresiya və korellasiya analizi aparılmışdır. Nəticələr göstərir ki, XBI ilə ÜDM-in artım tempi arasında müsbət əlaqə mövcuddur. XBI artımı ÜDM-in artım tempini yüksəldir və əksinə XBİ azaldıqça ÜDM də azalır.

Araşdırmada həmçinin XBI-nin davamlılığı üçün institusional mühitin yaxşılaşdırılması, qeyri-neft sektorunun genişləndirilməsi və biznes fəaliyyətinə dair normativ çərçivənin daha liberallaşdırılması kimi siyasət tövsiyələri də irəli sürülmüşdür. Ümumilikdə, tədqiqat sübut edir ki, xarici birbaşa investisiyalar Azərbaycanın iqtisadi inkişaf strategiyasında fundamental rol oynayır və gələcək iqtisadi siyasətin formalaşdırılmasında mühüm istiqamətverici amildir.

Nəticədə, aparılmış tədqiqat sübut edir ki, xarici birbaşa investisiyalar Azərbaycanın iqtisadi artımında strateji rol oynayır. Onlar ÜDM-in artımını yüksəldir, iqtisadi inkişafa töhfə verir və uzunmüddətli inkişaf perspektivlərini gücləndirir. Əsas inkişafda olan ölkələr üçün XBİ çox vacibdir. Məqalə həm nəzəri, həm də empirik baxımdan ölkədə XBI-nin əhəmiyyətini göstərir və gələcək iqtisadi siyasətin formalaşdırılmasında qərar qəbul edənlər üçün faydalı tövsiyələr təqdim edir.

**Açar sözlər:** Xarici birbaşa investisiyalar, Ümumi Daxili Məhsul, iqtisadi artım, Azərbaycan, regresiya analizi, iqtisadi siyasət.

**Abstract**

This article examines the impact of Foreign Direct Investment on the national economy and economic growth in Azerbaijan. The theoretical part of the study reviews the impact of FDI on capital flow, technology transfer, management, the competitive environment, and the unemployment rate. The theoretical analysis shows that foreign investments increase economic efficiency, stimulate long-term sustainable growth, increase the number of jobs, and contribute to the country's integration into international markets. Thus, they have a positive impact on the national economy.

In the analysis section, Azerbaijan's GDP and FDI indicators for the years 2017–2024 are presented and analyzed in Excel, and a regression and correlation analysis was conducted on this data. The results show that there is a positive relationship between FDI and the GDP growth rate. An increase in XBI raises the GDP growth rate, and conversely, as XBI decreases, GDP also decreases. The study also put forward policy recommendations for the sustainability of FDI, such as improving the institutional environment, expanding the non-oil sector, and further liberalizing the regulatory framework for business activities. Overall, the study proves that foreign direct investment plays a fundamental role in Azerbaijan's economic development strategy and is a crucial guiding factor in shaping future economic policy.

Consequently, the study proves that foreign direct investment plays a strategic role in Azerbaijan's economic growth. It boosts GDP growth, contributes to economic development, and strengthens long-term development prospects. FDI is very important for developing countries. The article demonstrates the importance of FDI in the country from both theoretical and empirical perspectives and provides useful recommendations for policymakers in shaping future economic policy.

**Keywords: Foreign direct investment, Gross Domestic Product, economic growth, Azerbaijan, regression analysis, economic policy.**

**Резюме**

В данной статье рассматривается влияние прямых иностранных инвестиций на национальную экономику и экономический рост в Азербайджане. В теоретической части исследования рассматривается влияние ПИИ на потоки капитала, передачу технологий, управление, конкурентную среду и уровень безработицы. Теоретический анализ показывает, что иностранные инвестиции повышают экономическую эффективность, стимулируют долгосрочный устойчивый рост, увеличивают количество рабочих мест и способствуют

интеграции страны в международные рынки. Таким образом, они оказывают положительное влияние на национальную экономику.

В разделе анализа представлены и проанализированы в Excel показатели ВВП и ПИИ Азербайджана за 2017–2024 годы, а также проведен регрессионный и корреляционный анализ этих данных. Результаты показывают, что существует положительная взаимосвязь между темпами роста ПИИ и ВВП. Увеличение XBI повышает темпы роста ВВП, и, наоборот, по мере снижения XBI снижается и ВВП.

В исследовании также представлены рекомендации по политике обеспечения устойчивости ПИИ, такие как улучшение институциональной среды, расширение нефтяного сектора и дальнейшая либерализация нормативно-правовой базы для ведения бизнеса. В целом, исследование показывает, что прямые иностранные инвестиции играют фундаментальную роль в стратегии экономического развития Азербайджана и являются ключевым фактором, определяющим будущую экономическую политику.

Следовательно, проведенное исследование доказывает, что прямые иностранные инвестиции играют стратегическую роль в экономическом росте Азербайджана. Они стимулируют рост ВВП, способствуют экономическому развитию и укрепляют долгосрочные перспективы развития. ПИИ имеют решающее значение для развивающихся стран. В статье продемонстрирована важность ПИИ в стране как с теоретической, так и с эмпирической точки зрения, а также даны полезные рекомендации для политиков при формировании будущей экономической политики.

**Ключевые слова: прямые иностранные инвестиции, валовой внутренний продукт, экономический рост, Азербайджан, регрессионный анализ, экономическая политика.**

## Giriş

Xarici birbaşa investisiyalar (XBI) bu gün sürətlə inkişafda olan dünyada ölkələrin iqtisadi inkişafı üçün əsas mənbələrdən biri sayılır. Xüsusilə inkişaf etməkdə olan ölkələr üçün XBI çox vacibdir, çünki bu ölkələrdə belə investisiyalar hər tərəfli müsbət reaksiya göstərir. Məsələn milli iqtisadiyyatı gücləndirir, işsizlik faizini azaldır, yeni texnologiyaların ölkəyə girməyinə imkan yaradır və bazarda məhsuldarlığı çoxaldır. Texnoloji cəhətdən inkişaf etmiş ölkələrdən gələn birbaşa xarici investisiya özü ilə yeni texnologiyalar və daha təmiz istehsal üsulları gətirə bilər ki, bu da az səmərəli yerli firmaları sıxışdırır, ya da yerli firmalar xarici firmaların mövcudluğuna cavab olaraq istifadə etdikləri texnologiya və istehsal üsullarını dəyişdirirlər (Matthew A. Cole, Robert J.R. Elliott, and Liyun Zhang,

Foreign Direct Investment and the Environment, 2017). İnkişaf etmiş ölkələr inkişafda olan ölkələrdə investisiya eliyərək həm həmin ölkəyə gəlir qazandırır və iqtisadi artımı artırır, həm də öz gəlirlərini artırır. Əgər gözlənilən marjinal gəlirlər xaricdə ölkə daxilindəkindən yüksəkdirsə və kapitalın marjinal xərclərinin hər iki investisiya növü üçün eyni olduğunu fərz etsək, o zaman ölkə daxilində deyil, xaricdə investisiya qoymağa təşviq yaranır (J. Saul Lizondo, Donald J. Mathieson, Foreign Direct Investment, 1990). Bununla yanaşı, ixrac imkanlarını artıraraq ölkənin dünya bazarına çıxışını da yaxşılaşdırır. Azərbaycan da inkişaf etməkdə olan ölkələr siyahısına girdiyi üçün XBI mühüm rol oynayır. Müstəqillikdən sonra ölkənin infrastrukturunun qurulması və enerji sektorunun inkişafı böyük ölçüdə xarici investisiyalar hesabına baş verib. 1994-cü ildə imzalanan "Əsr Müqaviləsi" ölkəyə böyük həcmdə xarici kapital gətirdi və Azərbaycanı regionun əsas enerji ölkələrindən birinə çevirdi(Firdovsi.D.Bağırov, Azərbaycanda Xarici investisiyaların formalaşması və səmərəliliyinin qitmətləndirilməsi, 2015). Bunun nəticəsində 2000-ci illərdə ÜDM sürətlə artdı, büdcə gəlirləri yüksəldi və iqtisadi sabitlik gücləndi.Son illərdə isə neft gəlirlərinin azalması ölkəni iqtisadiyyatı şaxələndirməyə məcbur edib. Artıq investisiyaların bir hissəsi qeyri-neft sahələrinə — sənaye parklarına, logistika mərkəzlərinə, kənd təsərrüfatına və xidmət sektoruna yönəlir. Bu da göstərir ki, iqtisadiyyat tədricən yeni mərhələyə keçir. Buna görə də XBI-nin ÜDM artımına real təsirinin araşdırılması həm alimlər, həm də iqtisadi qərar verənlər üçün vacibdir. Xarici investisiya ilə iqtisadi artım arasındakı əlaqəni öyrənmək gələcək iqtisadi siyasət üçün düzgün istiqamət müəyyən etməyə kömək edir. Bu əlaqəni öyrənərək ölkədə necə dəyişiklər etmək olar və daha çox investisiya cəlb etmək üçün yeni metodlar düşünmək olar. Som bir neçə onillikdə dünya xarici birbaşa investisiyalarının artım sürəti həm dünya ticarətinin, həm də ÜDM-in artım sürətlərini üstələyib (UNCTAD. (2024). *World Investment Report 2024: Investing in the SDGs: An Action Plan*. United Nations Conference on Trade and Development).

Bu tədqiqatın əsas məqsədi 2017–2024-cü illər ərzində Azərbaycanın illik ÜDM artım tempi ilə xarici birbaşa investisiya axınları arasındakı korrelyasiyanı statistik cəhətdən qiymətləndirməkdir.

**Nəzəri əsaslar.**

Xarici birbaşa investisiyalar (XBI) iqtisadi artımı dəstəkləyən ən vacib amillərdən biridir və Azərbaycan üçün də xüsusi əhəmiyyət daşıyır Neft sonayesina yatirilan investisiya qoyuluslarnin risk daracasi minimal oldugu üçün bu sahaya goyulan investisiyann pays xarici invetsisiyalarda müstasna hala malikdir (İskəndərova, Səbinə Elşad qızı. "Birbaşa xarici investisiyaların Azərbaycan iqtisadiyyatının inkişafına təsiri". Magistr dissertasiyası, UNEC). İqtisadi nəzəriyyələrə görə, xarici investisiyalar ölkəyə yeni kapital, müasir texnologiyalar, daha yüksək məhsuldarlıq və peşəkar işçi qüvvəsi gətirməklə həm qısa, həm də uzun müddətdə ÜDM-in artımına müsbət təsir göstərir. Son onillikdə baş verən qlobal

iqtisadi hadisələr, xüsusilə texnoloji irəliləyişlər, regional inteqrasiya və iqtisadi sistemlərin və siyasətlərin yenidən tənzimlənməsi nəticəsində qonaq ölkə hökumətlərinin xarici birbaşa investisiyaların onların iqtisadi və sosial məqsədlərinə necə töhfə verə biləcəyi barədə təsəvvürü köklü şəkildə dəyişib. Elə buna görə də hazırkı nəsil alimlər – hökumətləri və şirkətləri demirik – birbaşa xarici investisiyaların faydaları (və xərcləri) barədə daha çox bilmək istəyir (John H. Dunning, Re-Evaluating the benefits of FDİ). Klassik və neoklassik iqtisad məktəbləri də kapital çatışmazlığı yaşayan ölkələr üçün xarici investisiyanın nə qədər önəmli olduğunu vurğulayır.Azərbaycan müstəqilliyin ilk illərində məhz belə kapital çatışmazlığı ilə üzləşdiyi üçün 1994-cü ildən başlayaraq, xüsusilə neft və qaz sektoruna böyük həcmdə xarici sərmayə cəlb etməyə başladı (Bayramov, Şahin. *"İnvestisiya mühitinin birbaşa xarici investisiyalara təsiri: Azərbaycan misalı".* "Dayanıqlı İnkişaf" jurnalı, cild 2, №2, 2022.). Solow modelinin yanaşmasına əsasən, bu investisiyalar ölkənin kapital ehtiyatını artırdı, yeni istehsal obyektlərinin tikilməsinə imkan yaratdı və ÜDM-in yüksəlməsində mühüm rol oynadı. Bununla yanaşı, XBI ölkəyə yalnız maliyyə deyil, həm də müasir texnologiyalar, yeni idarəetmə üsulları və istehsal standartları gətirdi.SOCAR, BP və digər xarici şirkətlərin fəaliyyəti sayəsində ölkədə istehsal texnologiyaları yeniləndi, idarəetmə keyfiyyəti artdı və nəticədə iqtisadiyyatın uzunmüddətli səmərəliliyi gücləndi(Anar Rza, Ali Tatlı,AZƏRBAYCAN İQTİSADİYYATINDA XARİCİ İNVESTİSİYALAR, Journal of Azerbaijan Studies). Bu proses həm ölkənin istehsal gücünü artırdı, həm də onun beynəlxalq bazarlara daha geniş çıxış əldə etməsinə şərait yaratdı. Çünki Azərbaycana gələn xarici investisiyaların böyük hissəsi ixrac yönümlü neft və qaz layihələrinə yönəlmişdi. Bunun sayəsində həm istehsal, həm də ticarət həcmi genişləndi, dövlət büdcəsinin gəlirləri artdı və böyük infrastruktur layihələrinin maliyyələşdirilməsi mümkün oldu.Digər tərəfdən, xarici investisiyalar rəqabəti gücləndirərək yerli şirkətləri daha müasir və səmərəli istehsal üsullarına keçməyə təşviq etdi. Bu isə iqtisadiyyatda məhsuldarlığın yüksəlməsinə səbəb olan əsas mexanizmlərdən biridir. XBI həm maliyyə resursları, həm texnologiya, həm idarəetmə bilikləri, həm də ixtisaslı işçi qüvvəsi baxımından ölkəyə böyük töhfə verir və nəticədə ÜDM-in artım tempini yüksəldir. XBİ ancaq müsbət olmuya bilər və milli iqtisadiyyata mənfi təsirləri də ola bilər. Məsələn xarici şirkətlətin bazar payının çox olması bəzən daxili şirkətləri bazardan çıxarır (Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, 2011, "Elmi Əsərlər"). Rəqabət gücləndikçə bazarda şirkət sayı çoxaldıqca məhsul sayı və seçimi artsada bəzi yerli şirkətlərin satış faizi azalır. XBİ-nin yüksək paya malik olduğu iqtisadiyyatlarda ölkə qərarlarının əhəmiyyətli hissəsi xarici investorlardan asılı olur. Bu, yerli iqtisadi siyasətin sərbəstliyini azalda, milli təhlükəsizliyə təsir göstərə bilər. Xarici investorlar öz mənfəətlərini milli maraqlardan üstün tuta bilirlər (Md Saiful İslam, Positive and negative impact of FDİ). Beləliklə, xarici birbaşa investisiyalar həm qısa

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 312-321*

müddətdə iqtisadi canlanmanı, həm də uzun müddətdə davamlı inkişafı dəstəkləyən əsas vasitələrdən biridir və Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir amma mənfi hissələrini də nəzərə almaq lazımdır. Xarici kapitalin ölkəyə cəlb olunması üçün, müəyyən investisiya mühiti yaradılmalıdır ki, burada sa əsas rol dövlətə məxsusdur( İbrahimli Uğur A.oğlu, Xarici İnvestisiyaların dövlət təmzinlənməsi, 2023). Məsələn bu amillərə aiddir: təhlükəsiz siyasi mühit, coğrafi mövqə və bazarlara çıxış, təbii resurslar və sənayə potensialı və institusional şəffaflıq. Xarici investisiyanın ölkəyə cəlb olunması yalnız iqtisadi faydalar yaratmır, həm də ölkənin qlobal iqtisadi sistəmə inteqrasiyasını gücləndirir. Bunun üçün dövlətin rolu — sabit, şəffaf, proqnozlaşdırılan investisiya mühitinin yaradılması və investorların davamlı dəstəklənməsidir. Güclü hüquqi baza, inkişaf etmiş infrastruktur, insan kapitalı və siyasi sabitlik sərmayə axınını şərtləndirən ən vacib faktorlar hesab olunur (Azman-Saini, Ahmad Zubaidi Baharumshah , Siong Hook Law, Foreign direct investment, economic freedom and economic growth: International evidence, 2010).

**Təhlil**

Təhlili aparmaq üçün ilkin olaraq datalar yığılmalıdır. İllər arası Xarici birbaşa investisiyaların dəyişimi və ÜDM-nin artım tempi.

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| **Xarici** | | | | | | | | |
| mlyn.manat | 15697,3 | 14002,1 | 12119,5 | 10413,2 | 12751,9 | 14879,3 | 14671,2 | 14360,9 |
| mlyn.dolla | 9120,5 | 8236,5 | 7129,1 | 6125,4 | 7501,1 | 8752,5 | 8630,1 | 8447,6 |

**Mənbə: Azərbaycan Mərkəzi Bankı**

Bu qrafikdə xarici investisiyaların 2017-2024 cü illər aralığında Azərbaycanda olan
dəyəridir (milyon dollar və manat formasında).

| il | | üdm artım | | XBİ(mln $) |
|---|---|---|---|---|
| 2017 | | 5,20% | | 9120,5 |
| 2018 | | 3,50% | | 8236,5 |
| 2019 | | 2,50% | | 7129,1 |
| 2020 | | -4,20% | | 6125,4 |
| 2021 | | 3,60% | | 7501,1 |
| 2022 | | 4,70% | | 8752,5 |
| 2023 | | 4,40% | | 8630,1 |
| 2024 | | 4,10% | | 8447,6 |

**Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi**

Bu cədvəldə isə illik üdm artım faizi və xarici birbaşa investisiyalar bir yerdə göstərilib. İndi bu iki güstərici arasında Exceldə reqressiya və korrelasiya formulası ilə aralarında olan əlaqəni göstərəcik. Korrelasiyanı göstərmək üçün =Correlation(ilk olaraq XBİ-ni seçirik sonra isə ÜDM faiz artımını seçirik). Beləliklə Correlation=0,894551 bizə bu nəticəni verir. Beləliklə korrelasiya kofisenti 1-ə yaxındırsa bu göstərir ki xarici investisiya artdıqça ÜDM faiz artımı da artır.

Sonrakı mərhələdə XBI ilə ÜDM artımı arasındakı əlaqənin vizual qiymətləndirilməsi üçün scatter (nöqtə) diaqramı qurulmuşdur. Qrafikdə üfüqi oxda XBI, şaquli oxda isə ÜDM-in artım tempi yerləşdirilərək dəyişənlər arasında xətti əlaqənin mövcud olub-olmaması müşahidə olunmuşdur. Qrafik üzərinə əlavə edilən linear trend xətti regressiya xəttinin ilkin formasını əks etdirmiş və $R^2$ göstəricisi vasitəsilə əlaqənin gücü qiymətləndirilmişdir.



Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2026
Səh. 312-321

Scatter diaqramı göstərilib və burda regressiya xəttinin ilkin forması göstərilib və əlavə olaraq $R^2$ bərabərdir 0.8002. Bu göstərici 0.5-0.7 aralığında olanda normal təsir olduğunu və 0.7-dən çox olanda güclü təsir olduğunu göstərir. Beləliklə XBİ ilə ÜDM artım faizi güclü əlaqəlidir.

Empirik qiymətləndirmənin əsas hissəsi isə regresiya təhlili vasitəsilə həyata keçirilmişdir. Modeldə ÜDM-in artım tempi asılı dəyişən (Y), xarici birbaşa investisiyalar isə müstəqil dəyişən (X) kimi götürülmüşdür. Regresiya aparıldıqdan sonra modelin əsas statistik göstəriciləri – dəyişənlərin əmsalları, p-value göstəriciləri, $R^2$ və Significance F qiymətləri əldə edilmişdir.

Regresiya əmsalı (β) XBI-in ÜDM-in artım tempinə təsirinin istiqamətini və gücünü müəyyən etmişdir. p-value göstəricisi əmsalın statistik cəhətdən əhəmiyyətli olub-olmadığını qiymətləndirmiş, $R^2$ isə ÜDM artımındakı dəyişmələrin nə qədərinin XBI tərəfindən izah olunduğunu göstəmişdir. Significance F modelin ümumi etibarlılığını təsdiq etmişdir.

| SUMMARY OUTPUT | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | |
| *Regression Statistics* | | | | | | | | |
| Multiple R | 0,894551 | | | | | | | |
| R Square | 0,800221 | | | | | | | |
| Adjusted R | 0,766925 | | | | | | | |
| Standard E | 0,014552 | | | | | | | |
| Observatic | 8 | | | | | | | |
| | | | | | | | | |
| ANOVA | | | | | | | | |
| | *df* | *SS* | *MS* | *F* | *ignificance F* | | | |
| Regressior | 1 | 0,005089 | 0,005089 | 24,03325 | 0,002704 | | | |
| Residual | 6 | 0,00127 | 0,000212 | | | | | |
| Total | 7 | 0,00636 | | | | | | |
| | | | | | | | | |
| | *Coefficients* | *andard Erro* | *t Stat* | *P-value* | *Lower 95%* | *Upper 95%* | *ower 95,0%* | *pper 95,0%* |
| Intercept | -0,18582 | 0,044273 | -4,19718 | 0,005704 | -0,29415 | -0,07749 | -0,29415 | -0,07749 |
| XBİ(mln $) | 2,7E-05 | 5,5E-06 | 4,902372 | 0,002704 | 1,35E-05 | 4,04E-05 | 1,35E-05 | 4,04E-05 |

"Regresiya analizi göstərdi ki, XBI-in ÜDM artım tempinə təsiri müsbətdir və statistik olaraq əhəmiyyətlidir (β =2.7E-05, $p < 0.05$)."

Əlavə olaraq Significance F kofisenti 0.05-dən az olarsa model əhəmiyyətli sayılır deməkdir.

**Nəticə**

Xarici birbaşa investisiyaların (XBI) Azərbaycan iqtisadiyyatına təsiri ilə bağlı aparılan təhlillər göstərir ki, bu investisiyalar ölkənin inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir. XBI həm ÜDM-in artımını birbaşa artırır, həm də dolayı yollarla iqtisadi aktivliyi gücləndirir. Xarici sərmayə ölkənin daxili kapitalını artırır, yeni texnologiyalar gətirir və istehsal prosesinin keyfiyyətini yaxşılaşdırır. Eyni zamanda, rəqabətin güclənməsinə səbəb olaraq idarəetmə monopoliyasını zəiflədir və daha sağlam biznes mühiti yaradır ( Alesina, A., & Barro, R. J. (2002). *Foreign Direct Investment and Economic Growth*). Yeni şirkətlərin bazara daxil olması da işçi yerlərini çoxalmasına səbəb olur və işsizlik faizi ölkədə azalır. Azərbaycan uzunmüddətli sabit iqtisadi artım əldə etmək üçün məhz bu üstünlüklərdən istifadə edir. Xüsusilə neft və qaz sektoruna yönələn böyük xarici sərmayələr ölkədə mühüm struktur dəyişikliklərinə səbəb olmuş və iqtisadiyyatın dünya bazarlarına daha yaxşı inteqrasiya olmasını təmin etmişdir.Aparılan analizlər də hipotezi dəstəkləyir. Excel-də qurulan regresiya modeli göstərib ki, XBI ilə ÜDM-in artım sürəti arasında müsbət əlaqə mövcuddur. XBI-nin əmsalının müsbət çıxması onu göstərir ki, ölkəyə daxil olan xarici investisiya həcmi artdıqca ÜDM də artır. Modelin P-dəyəri, F-testi və $R^2$ göstəricisi də bu əlaqənin təsadüfi olmadığını və iqtisadi cəhətdən mənalı olduğunu sübut edir. Bu isə onu göstərir ki, Azərbaycanda iqtisadi artıma təsir edən əsas amillərdən biri məhz xarici investisiyadır.Ümumilikdə araşdırmanın nəticələri göstərir ki, ölkədə XBI-in artması istehsal imkanlarını genişləndirir, iqtisadi aktivliyi yüksəldir və ÜDM-in artım tempini gücləndirir. Bununla belə, gələcəkdə daha çox investor cəlb etmək və investisiya axınını sabit saxlamaq üçün iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin inkişafı, biznes mühitinin liberallaşdırılması və institusional islahatların davam etdirilməsi vacibdir. Bu addımlar atılarsa, Azərbaycan daha çox xarici sərmayə cəlb edə bilər və uzun müddətdə daha sabit və davamlı iqtisadi artım əldə edə bilər.

## Ədəbiyyat siyahısı

1. Matthew A. Cole, Robert J.R. Elliott, and Liyun Zhang, Foreign Direct Investment and the Environment, 2017
2. J. Saul Lizondo, Donald J. Mathieson, Foreign Direct Investment, 1990
3. Firdovsi.D.Bağırov, Azərbaycanda Xarici investisiyaların formalaşması və səmərəliliyinin qitmətləndirilməsi, 2015
4. Azərbaycan Dövlət Statistika Komitəsi (DSK)
5. Azərbaycan Mərkəzi Bankı

6. İskəndərova, Səbinə Elşad qızı. “Birbaşa xarici investisiyaların Azərbaycan iqtisadiyyatının inkişafına təsiri”. Magistr dissertasiyası, UNEC

7. Bayramov, Şahin. *“İnvestisiya mühitinin birbaşa xarici investisiyalara təsiri: Azərbaycan misalı”*. “Dayanıqlı İnkişaf” jurnalı, cild 2, № 2, 2022.

8. Alesina, A., & Barro, R. J. (2002). *Foreign Direct Investment and Economic Growth*. NBER Working Paper No. 9103. National Bureau of Economic Research.

9. UNCTAD. (2024). *World Investment Report 2024: Investing in the SDGs: An Action Plan*. United Nations Conference on Trade and Development.

10. John H. Dunning, Re-Evaluating the benefits of FDİ

11. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, 2011, “Elmi Əsərlər”

12. Md Saiful İslam, Positive and negative impact of FDİ

13. İbrahimli Uğur A.oğlu, Xarici İnvestisiyaların dövlət təmzinlənməsi, 2023

14. Anar Rza, Ali Tatlı,AZƏRBAYCAN İQTİSADİYYATINDA XARİCİ İNVESTİSİYALAR, Journal of Azerbaijan Studies

15. Azman-Saini, Ahmad Zubaidi Baharumshah , Siong Hook Law, Foreign direct investment, economic freedom and economic growth: International evidence, 2010

**Elmi Rəhbər: i.ü.f.d., müəl, İbadov Seymur Vaqif**